Buraxılış №3

Sentyabr 2007

# Azərbaycanda Quş Qripi

QQ üzrə iki yeni tədqiqat elan edilir: UNİCEF/ERA təşkilatlarının birgə keçirdiyi Azərbaycanda Quş Qripinin Təsirnin Qiymətləndirilməsi (2007) və Dünya Bankının Quş Qripi Layihəsi/Khatt təşkilatının Bilgilər, Münasibətlər və Davranış üzrə Tədqiqatı (2007)

**Azərbaycanda Quş Qripi ilə mübarizədə böyük səylər göstərilməkdədir.** Bu səylər virusun molekulyar genezisinin müayinə edilməsindən insanların virusa yoluxması və quşların köç marşrutlarına kimi çeşidlənir.

İnfeksiyanın qarşısının alınması səylərinin daha rational və əlaqələndirilmiş olması üçün **güclü liderliyə** ehtiyac vardır. Bu liderlik araşdırma ilə tədbir arasında əlaqənin olmasına işarə edən sübutlar və bu məsələnin tam dərk edilməsi əsasında qurulmalı olacaq.

Bu **liderliyi dəstəkləmək üçün** hal-hazırda **araşdırma xarakterli iki mühüm QQ tədqiqatı həyata keçirilir.** Tədqiqatların məqsədi peşəkarların və ictimaiyyətin nöqteyi-nəzərindən nələrə nail olunduğunu müəyyən edib bizə məlumat verməkdən ibarətdir. Hər iki hesabat yenicə hazırlanıb və Azərbaycanda quş qripinə qarşı mübarizə aparan bütün şəxslər üçün çox faqdalı və praktiki məlumatlar təmin edir.



**Əldə edilmiş qənaətlər çox müsbətdir , belə ki, onlar QQ-nin profilaktikasında xeyli irəliləyişin olduğunu göstərir.** Lakin məlumatların özləri də çox rəngarəngdir və bizə insanların öyrəndiklərini *öz sözləri ilə* təsvir etmələrini eşitmək imkanı verir. Onların rəyləri bizim üçün çox vacib və dəyəlidir, çünki bu rəylər arasında bizim gələcək işimiz üçün çoxlu sayda **əla nümunələr və tövsiyyələr** vardır.

Ümidvaram ki, siz həmin hesabtlara nəzər salacaq, əldə eilmiş nəaliyyətləri qiymətləndirəcək və gələcək tədbirlərə hazırlaşacaqsınız.

**Hanaa Singer, UNICEF təmsilçisi və QQ üzrə donor koordinatoru, Azərbaycan**

## Bu buraxılışda:

**Yeni QQ tədqiqatları** 1

**Global və yelri** 2

**Hökumət və Donor xəbərləri** 3

**Xəstəliyin** 4

**Tədqiqat** 5

**QQ üzrə kontaktlar** 6

**Hər bir uşaq üçün**

**Sağlamlıq, Təhsil, Bərabərlik, Müdafiə**

unicef

# Dünyada QQ-nin İcmalı...




## Dünya Sağlamlıq Hesabatı 2007 – Daha təhlükəsiz gələcək: 21-ci əsrdə qlobal ictimai sağlamlıq təhlükəsizliyi

*Dünya Sağlamlıq Hesabatı 2007 – Daha təhlükəsiz gələcək: 21-ci əsrdə qlobal ictimai sağlamlıq təhlükəsizliyi* ictimai sağlamlıq tarixində dönüş nöqtəsini qeyd edir və yarım əsrlik zaman kəsiyində sağlamlığın təhlükəsizliyində ən böyük irəliləyişin nə ola bilməsinə işarə edir. Bu hesabat tezliklə qlobal ictimai sağlamlıq təhlükələrinə çevrilə biləcək xəstəliklərin, epidemiyaların baş qaldırmasının, sənayedə bədbəxt hadisələrin, təbii fəlakətlərin və digər sağlamlıq üçün fövqəladə olan halların baş verməsinin dünyanı necə artan risklə qarşı-qarşıya qoyduğunu göstərir.

**QQ ilə bağlı dünyada bu yaxınlarda keçiriləcək tədbirlər...**

Merilənd: **Cons Hopkins Universiteti seminar keçirir, *Quş Qripi:*** *Merilənddin ilk reaksiya verən peşəkarları üçün Çevik Reaksiya Təlimi* və *Ev Quşlarının Sağlamlığı və Emalı üzrə Milli Yığıncaq* oktyabr ayında keçiriləcək. **31 oktyabr, 2007-ci il,** Kembric, MD və ya 14 noyabr 2007-ci il, Frederik, MD

**Nyu Dehlidə Quş Qripi üzrə Beynəlxalq Nazirlər Görüşü** Hidinstanda 4-6 dekabr 2—7-ci il tarixlərdə keçiriləcək

**Quş Qripi ilə bağlı son OİE Xəbərləri/Davamlı Hesabatları: Almaniyada** 400 ördəkdə Yüksək Patogen Quş Qripi H5N1 virusu

**Dünya üzrə insanlarda QQ 328 yoluxma hadisəsi və 200 ölüm halı, 11 sentyabr (ÜST)**

## QQ üzrə Azərbaycan xəbərləri...

**QQ-nə hazırlıq üzrə DB və ÜST-nın birgə ekspert missiyaları işə başlamaq üzrədir:**




- **Səhiyyə Nazirliyinin Sanitariya və Epidemioloji Nəzarət Sektorunun rəhbəri Viktor Qasımov** bəyanat vermişdir ki, Almaniyadan Xəstəxana Məsləhətçisi və mühəndis Dr. Horst Gudat **yüksək təhlükəsi olan və hava ilə ötürülən infeksiyalara,** xüsusən quş qripinə **yoluxmuş insanlar üçün Bakıda** Dövlət Ağ Ciyər Xəstəlikləri İnstitutunda **təcrid edilmiş palatanın** təşkilinin planlaşdırılmasını məsləhət görür.

*"Quş Qripinə Hazırlıq layihəsi çərçivəsində Azərbaycanda mümkün quş qripi xəstələrini müalicə etmək üçün mənfi təzyiqi olan təcrid otaqlarının qurulması nəzərdə tutulur".* Dr. Gudat müasir avadanlıqla təchiz edilmiş mənfi təzyiq otaqlarının qurulmasını təklif etmiş və bunun üçün təqribi layihə və büdcənin layihəsini hazırlamışdır.

Dr. Angel Kunçev, Dövlət Qu.Qripinə Hazırlıq Planı üzərində işləyən ekspert sentyabrın 30-u və oktyabrın 14-ü 2007-ci il tarixlərində Bakıda olacaqdır.

Əlavə məlumat üçün lütfən ÜST-in Bakı ofisinə müraciət edin, Dr.Kamran Qaraxanov: garakhanovk@euro.who.int

17.09.07 14:50

# Dövlət Baytarlıq Xidməti: «Azərbaycanda epizootik vəziyyət sabitdir

Azərbaycan, Bakı / TrendCapital , müxbir S.Babayeva/ Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Baytarlıq Xidməti ölkədə təhlükəli yolxucu heyvan xəstəliklərinin ölkəyə daxil olması və yayılmasının qarşısının alınması ilə bağlı aparılan mübarizə tədbirlərinin statusunu açıqlayıb.

Dövlət Xidmətinin mətbuat katibi Yolçu Xanvəlinin bazar ertəsi verdiyi məlumata görə, «quş qripi» virusunun yayılması səbəbindən Krasnodar, Stavropol və Rusiyanın Şimali Qafqaz regionundan Azərbaycana quş məhsulları, heyvani mənşəli qidalar, yemlər və yem əvəzləyicilərinin idxalına olan müvəqqəti qadağa qüvvədə qalır. Azərbaycan adətən quş məhsullarını Rusiya, Türkiyə, ABŞ, Braziliya və Kanadadan idxal edir. Azərbaycan Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, yanvar-iyun ayları ərzində ölkəyə 4772, 7 min ABŞ dolları həcmində 9803,5 ton quş əti idxal olunub.

«İdxala qadağa Gürcüstana münasibətdə də qalmaqdadır ki, bu ölkədə donuzlar arasında «Afrika taunu» aşkar olunub» - deyə Xanvəli bildirib.

Virusların ölkəyə daxil olmasının qarşısını almaq üçün sərhəd və baytarlıq məntəqələri gücləndirilmiş rejimdə işləyir. Gürcüstan və Rusiya ilə sərhəddə dezobaryerlər yaradılıb, bu ölkələrdən gələn avtomaşınlar dezinfeksya edilir.

Brüselyozun yayılmasının qarşısını almaq üçün Azərbaycanın bütün regionlarında monitorinqlər, iribuynuzlu və xırdabuynuzlu mal-qaranın vaksinasiyası həyata keçirilir.



Köçəri quşların miqrasiyası, Rusiyanın bir sıra əyalətlərində xəstəliyin mövcud olması ilə əlaqədar «quş qripi»nin xəbərdarlığı məqsədilə sentyabrın 24-də birinci payız monitorinqinə başlanacaq. Monitorinq baytarlıq xidmətinin, Ekologiya, Səhiyyə Nazirliyinin, Ovçular Cəmiyyətinin mütəxəssislərindən ibarət komissiya tərəfindən aparılır. Bir qayda olaraq monitorinq Abşeron yarımadasını, Dəvəçi, Səlyan, Ağcabədi və Lənkəranı əhatə edir.

Mətbuat katibinin sözlərinə görə, ölkədə «quş qripi» ilə bağlı vəziyyət sabitdir. Bu il səkkiz monitorinq keçirilib, çöl və ev quşlarının 8210 nümunəsi müayinə edilib. Nümunələrin heç birində bu virus aşkar olunmayıb.

Azərbaycanda çöl quşlarının ovuna, satışına və istifadəsinə qoyulan qadağa qüvvədə qalır.

# Hökumət və Donor Xəbərləri




**Azərbaycanlı baytarlıq mütəxəssisi** quş qripinə həsr olunmuş və Türkiyənin Antalya şəhərində 2-5 sentyabr tarixlərində keçirilmiş **beynəlxalq konfransda iştirak etmişdir.** Nümayəndə heyətinin üzvləri: Klement Əsədov,Tamilla Əliyeva, Hüseyn Hüseynov, Qalib Abdullayev və Məsud Xatibi Azərbaycanda profilaktik işlər və epidemioloji nəzarət barədə təqdimat etdilər.

**Pragma (USAİD-in maliyyələşdirdiyi təşkilat)** Baytarlıq Xidmətinin xahişi ilə bu qurumu **Quş Xəstəlikləri haqqında Vərəqənin əlavə nüsxələrilə** təmin etdi. Sentyabr ayında bu vərəqənin daha 500 nüsxəsi paylanmaq üçün xidmətə çatdırılmışdır.

**DTRA.** Vahid Məhsul Komandasının İcilasının 2007-ci il 1-2 noyabr tarixlərində Nazirlər Kabinetində keçirilməsi nəzərdə tutulur. Onlar həmçinin Bakıdakı **Mərkəzi Respirator Laboratoriyanın** birinci hazırlıq mərhələsini başa çatdırmışlar.

Cef Lyuis, ABŞ-ın Mülki və Hərbi Münasibətlər Mərkəzinin (MHMM) əməkdaşı, 23-28 iyul 2007-ci il tarixləri arasında özünün **Azərbaycan üzrə Qiymətləndirmə** missiya hesabatını hazırlamışdır. O, **Fəlakət Halları üçün Milli Planın** sona çatdırılması və təsdiq edilməsini təkidlə tövsiyyə etmişdir. (Təfsilatlar üçün: Cef Lyuis: idart@sbcglobal.net )/

**Təhsil Nazirliyi və UNICEF** oktyabr ayında QQ üzrə məktəb proqramının 2-ci mərhələsinə başlayacaqlar**.**

**"Sağlam Ol, Sağlamlığını Qoru": UNİCEF-in** QQ üçün ictimai səfərbərlik kampaniyası sentyabr ayında 8 şəhərdə **yeni kampaniyaya başlayacaq.** Proqrama QQ barədə mesajlar və təqdimatlar, əyləncəli tədbirlər və yerli müsiqiçilərin iştirakı ilə musiqi şouları daxildir (təfsilatlar aliyev@unicef.org ).

**UNICEF Save the Children təşkilatı ilə birlikdə** 5-11 yaşlı **uşaqların sağlam həyat tərzini qurmaq** üçün layihə həyata keçirir. Layihə UNİCEF-in Məktəb Proqramlarında Quş Qripi Kommunikasiyası əsasında aparılacaqdır və **Quş Qripi və sağlamlıq/gigiyena ilə bağlı** digər məsələlərə həsr olunacaqdır. Televiziyada tok-şoular, icma teatrları və kukla səhnəciklərinin hamısından sağlam yaşam üçün insanların şəxsən məsuliyyət daşımaları məsələsini təbliğ etmək üçün istifadə ediləcəkdir (əlaqə: Səidə Nəbiyeva saida@savechildren.org.az ).

Azərbaycanın **SOS Beynəlxalq Klinikası** bu yaxınlarda özünün "Yerli Pandemiyaya Hazırlıq Planını" yeniləmiş və yoxlamışdır - əlavə məlumat üçün Dr. Grunerə müraciət edin – reinhard.gruner@internationalsos.com

## QQ ÜZRƏ İŞÇI QRUPUNUN XƏBƏRLƏRI



UNİCEF **Nazirlər Kabinetinin** əməkdaşı A.Məmmədovla sentyabr ayının 19-da görüşmüş və o, QQ üzrə İşçi Qrupunun gələcək görüşlərini öz idarəsində qəbul edəcəyinə razılıq vermişdir.

**QQ üzrə Əlaqələndirmə İclası, 25 sentyabr, 16:00, UNİCEF-in ofisi**

# Azərbaycanda QQ xəbərləri

## UNİCEF/ERA-nın Azərbaycanda Quş Qripinə qarşı tədbirlərin təsirinin qiymətləndirilməsi

**Xülasə:** araşdırma bu sahədə əldə edilmiş uğurun bariz sübutunu aşkar etdi. Əhəmiyyətli uğur sadəcə məlumatlılıq deyil, **davranışın dəyişdirilməsinə** nail olunduğunda əldə edilmiş hesab edilir, məsələn respondentlərdən biri demişdir:

“2005-ci ildə olan davranışlarla müqayisədə 2006-cı ildə aşkar dəyişiklik vardır. QQ/PQ ilə bağlı kampaniyaların insanların davranışlarına müsbət təsiri olmuşdur. İnsanlar hətta quş əti və quş məhsullarından istifadədən imtina edirdilər məlumatlandirma kampaniyasından sonra insanlar başa düşürlər ki, ev quşlarını saxlamanın təhlükəsiz yolları vardır. Bu yollardan biri quşların qəfəsdə saxlanılmasıdır.” (ƏMŞ.39)

**Məqsəd və metodologiya:** qiymətləndirmə yerlərdə aparılmış araşdırma əsasında QQ profilaktikasının səmərəliliyinin artırılması yollarını müəyyən etmişdir. Müsahibələr və fokus qrupu müzakirələri 12 yüksək risk bölgəsində 165-dən çox insan ilə aparılmışdır.

**Nəticələr**: Respondentlərin bir çoxu QQ-nin yayılması ilə bağlı suallara düzgün cavab verə bilmiş, kliniki simptomları sadalamış və profilaktik tədbirləri təsvir edə bilmişdilər (məsələn qəfəsdə saxlama, ŞMV-in geyilməsi, əllərin yuyulması, quş ətinin yaxşı bişirilməsi, və s.). Lakin daha vacibi odur ki, onlar **özlərinin gündəlik praktikalarında dəyişiklikləri qeyd edə bilmişdilər, məsələn quşları necə qəfəsdə saxlayırlar, quşların saxlanması və yemlənməsində onların uşaqlarının rolunda dəyişiklik nədir, yeməklərin bişirilməsinin yeni üsulu hansıdır, ölü quş gördükdə onlar nə edəcəklər və ya QQ-nin hər hansı kliniki simptomu hansıdır.**



Bu, Azərbaycanda QQ ilə mübarizə aparanlar üçün **sevindirici xəbərdir**. Bundan əlavə, QQ kampaniyalarını həyata keçirənləri və səylərin davam edilməsini tərifləyənlər də olmuşdu (qeyri-ixtiyari); xüsusən, məktəblərdə keçirilən QQ layihələri QQ ilə bağlı televiziya çarxlarının verilməsi, quşçuluqla məşğul olan fermerlərlə sorğu aparılmış şəxslər tərindən vurğulanmışdı. Azərbaycanda QQ ilə mübarizə aparan peşəkarlar bu hesabatda verilmiş bir çox məsələ ilə bağlı qürur duya bilərlər.

Lakin, dünyada ictimai sağlamlıq üçün qabaqcadan gözlənilməsi mümkün olmayan bu təhlükə qarşısında **arxayınçılığa yer yoxdur**. Bundan əlavə, dəlillər göstərir ki, **hələ də təkmilləşdirmə üçün vacib sahələr qalmaqdadır,** məsələn: *“quş qripi insanlara keçmir”, ‘quş saxlamağa dəyməz, “uşaqlar quş məhsulları yeməməlidirlər”,”quşları qəfəsdə saxlama QQ qarşısını almaq üçün kifayətdir”*, və s. İndi auditoriyamızı dinləmək və onların dürüst və perspektiv tövsiyyələri üzərində yeni strategiyalarımızı planlaşdırmaq vaxtıdır.

**Dünya Bankının Quş Qripi layihəsi: Bilgilər, Münasibət və Davranış üzrə Sorğu (BMD)** Khatt Research təşkilatı tərəfindən həyata keçirilmiş və təşkilat BMD sorğusu haqqında birinci hesabat layihəsini Layihənin İcrası Komandasına təqdim etmişdir. **Tədqiqatın məqsədləri:** (i) milli informasiya kampaniyasına başlamazdan əvvəl ümumi əhali arasında QQ haqqında biliklərin səviyyəsini müəyyənləşdirmək; (ii) nəticələri UNİCEF tərəfindən 2006-cı ilin may ayında keçirilmiş BMD sorğusunun nəticələri ilə müqayisə etmək və bir il ərzində baş vermiş dəyişiklikləri müəyyən etmək. Bu tədqiqat məlumat kampaniyasının yekun təsirini həyata keçirən zaman istinad edilə bilən baza məlumat kimi xidmət edir. Hesabat bu yaxınlarda dərc ediləcəkdir. (Azər Məlikovla əlaqə saxlayın, amelikov@agroagency.gov.az )

**Redaktordan qeyd: Biz səmimiliklə ümid edirik ki, siz bizim üçüncü buraxılışımızı bəyənəcəksiniz.**

**Sizdən ideyalar və ya təkliflər və xüsusən də töhvələr almağa çox şad olardım!**

**Dominique Freire (UNİCEF-in məsləhətçisi): domfreire@gmail.com və ya mobil : 050 582 54 22**

| *Azərbaycanda Quş Qripi üzrə Əlaqələndirici Şəxslər* | | | | |
|---|---|---|---|---|
| **Təşkilat** | **Adı** | **Vəzifəsi** | **Elektron ünvanı** | **İş telefonu** |
| **Nazirlər Kabineti** | Yaqub Eyyubov | Baş Nazirin Birinci Müavini | | 492 05 92 |
| **Fövqəladə Hallar Nazirliyi** | Faiq Tağızadə | Nazir Müavini | | 431-2425, 431-6114 |
| **Təhsil Nazirliyi** | Elnur Əlizadə | Təhsil və Hərbi Təlim Şöbəsinin Aparıcı Məsləhətçisi | | 512-00-61 |
| **BMT/BMT Uşaq Fondu** | Hanna Sinqer | BMT Uşaq Fondunun Nümayəndəsi | hsinger@unicef.org | 492 3013 |
| ***SANITAR-GIGIYENA*** | | | | |
| **Səhiyyə Nazirliyi** | Viktor Qasımov | Sanitariya Epidemioloji Nəzarəti Sektorun Müdiri | vitktor.gasimov@health.gov.az | 498 75 29 |
| **Respublika Epidemioloji Xəstəliklərə qarşı Mübarizə Mərkəzi** | Maqsud Qasımov | Direktor | | |
| **ÜST** | Kamran Qaraxanov | Bakı ofisinə müraciət | garakhanovk@euro.who.int | 499 98 88 |
| **ÜST** | Elxan Qasımov | Malyariya üzrə Məsul Şəxs | ELG@euro.who.int | 499 98 88 |
| ***HEYVAN GIGIYENASI*** | | | | |
| **Kənd Təsərrüfatı Nazirliyi** | İsmayıl Həsənov | Dövlət Baytarlıq Xidmətinin Direktoru | vet_depktn@yahoo.co | 418-0812 |
| | Emin Şahbazov | Dövlət Baytarlıq Xidmətinin Direktor | vet_depktn@yahoo.com | 418-0813 |
| **Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | Sədaqət Məmmədova | Ətraf Mühitin Mühafizəsi Sektorunun Müdiri | | 439 11 11 |
| **DB QQH** | Elvira Anadolu | Səhiyyə Mütəxəssisi | eanadolu@worldbank.com | 492 19 41 |
| | Rufiz Chi-ragzade | Bas Mütəxəssisi | rchiragzade@worldbank.org | 4921941; 4922807 |

| | | | | |
|---|---|---|---|---|
| **FAO** | Tamilla Əliyeva | Milli Ekspert | tamilla_aliyeva@list.ru | 499 94 51 /498 02 |
| **ABŞ BİA** | Tara Milani | Qafqazda Quş Qripi üzrə Mütəxəssis və Səhiyyənin İnkişafı üzrə İşçi | Tmilani@usaid.gov | 012-498-1835 |
| **PRAQMA** | Vilyam Levin | Qrup Rəhbəri | WLevine@pragmaaz.co | 492-88-81; 492 -34-88 |
| ***ÜNSIYYƏT*** | | | | |
| **DBQQH** | Azər Məlikov | Ünsiyyət üzrə Mütəxəssis | amelikov@agroagency.gov | |
| **BMT Uşaq Fondu** | Ayna Mollazadə | BMT Uşaq Fondunun İctimaiyyətlə Əlaqələr üzrə Məsul Şəxsi | amollazade@unicef.org | 493 3013 |
| | Dominiq Frayr | BMT Uşaq Fondunun Quş qripi üzrə Məsləhətçisi | domfreire@gmail.com | 494 3013 |
| **BSK/Cons Hopkins** | Cəmilə Əzizova | İİÇV-nin Qarşısının Alınması üzrə Mütəxəssis | jamila.azizova@imc | 447-3830/ 598-0039 |
| ***LABORATORIYA DƏSTƏYİ*** | | | | |
| **MTAO** | Cenifer Bruer | Layihə Rəhbəri | BrewerJ@state.gov | 498 03 35 |
| **Yaponiya** | Kono Mitsuhiro | Birinci Katib | Mitsuhiro.konho@mofa.go.jp | 490 78 18 |
| **Səfirliklər** | | | | |
| **ABŞ** | Karolina Hide | İqtisadi məsələlər üzrə İşçi | HideaC@state.gov | 498 03 35 |
| **Böyük Britaniya** | Deklan Birn | Siyasi məsələlər üzrə İşçi | Declan.byrne@fco.gov | 4975188/89/90 |